# Sosial - iqtisadi inkişaf

**(2015-ci ilin yanvar-noyabr ayları üzrə)**

Muxtar respublikada cari ilin yanvar-noyabr aylarında 2 milyard 150 milyon 466 min 600 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2014-cü ilin yanvar-noyabr ayları ilə müqayisədə 1,6 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2014-cü ilin yanvar-noyabr ayları ilə müqayisədə 2,3 faiz artaraq 4866,4 manata çatmışdır.

***

Muxtar respublikada yaradılan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 834 milyon 451 min manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstəricini 1,5 faiz üstələmişdir.

***

İnfrastruktur quruculuğu çərçivəsində cari ilin yanvar-noyabr ayları ərzində muxtar respublikada əsas kapitala 871 milyon 214 min manat həcmdə investisiya yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 4,5 faiz çoxdur. Əsas kapitala yönəldilmiş investisiyaların 766 milyon 187 min manatı və ya 87,9 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

***

2015-ci ilin yanvar-noyabr aylarında informasiya və rabitə xidmətlərinin həcmi 44 milyon 491 min manata yaxın olmuşdur ki, bu da 2014-cü ilin yanvar-noyabr ayları ilə müqayisədə 1,9 faiz çoxdur. Bu müddət ərzində mobil rabitə xidmətlərinin həcmi 37 milyon 690 min manat olmaqla bir il öncəki göstəricini 2,2 faiz üstələmişdir.

***

Cari ilin yanvar-noyabr ayları ərzində 347 milyon 558 min manatdan artıq həcmdə kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstəricini 12,6 faiz üstələmişdir. Bu dövr ərzində muxtar respublikada diri çəkidə 21,3 min ton ət, 77,2 min ton süd istehsal edilmiş, 2014-cü ilin yanvar-noyabr ayları ilə müqayisədə ət istehsalı 20,1 faiz, süd istehsalı 2,3 faiz artmışdır.

***

Əhali gəlirlərinin artımı davam edir. Cari ilin yanvar-noyabr aylarında muxtar respublikada əhalinin gəlirləri 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz artaraq 1 milyard 596 milyon 926 min 300 manat, onun hər bir nəfərə düşən həcmi isə 0,8 faiz yüksələrək 3613,8 manat təşkil etmişdir.

***

2015-ci ilin yanvar-noyabr aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 395,6 manat təşkil etmiş və bu göstərici əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,8 faiz artmışdır.

***

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 dekabr 2015-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 52844-ə çatmışdır ki, bunun da 48304-ü və ya 91,4 faizi aktiv hesablardır. 2015-ci ilin yanvar-noyabr aylarında açılmış 14617 bank hesabının 14563-ü və ya 99,6 faizi aktiv hesablar olmuşdur.

Cari ilin yanvar-noyabr aylarında muxtar respublikada 147 POS-terminal quraşdırılmış və bu göstərici 1 dekabr 2015-ci il tarixə 1014-ə çatdırılmışdır.

***

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmışdır. Cari ilin yanvar-noyabr aylarında muxtar respublikada 434573,5 min Amerika Birləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi son bir il ərzində 6,9 faiz artaraq 374640,7 min Amerika Birləşmiş Ştatları dolları, idxalın həcmi isə 38,1 faiz azalaraq 59932,8 min Amerika Birləşmiş Ştatları dolları həcmində olmuşdur. Xarici ticarət üzrə 314 milyon Amerika Birləşmiş Ştatları dollarından artıq həcmdə müsbət saldo yaranmışdır.

***

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. 2015-ci ilin yanvar-noyabr aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 66141 min manat məbləğində kreditlər verilmişdir ki, bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 39,9 faiz çoxdur.

***

2015-ci ilin yanvar-noyabr aylarında muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 5489,7 min manat olmuşdur ki, bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 96,1 min manat və ya 1,8 faiz çoxdur.

***

2015-ci ilin yanvar-noyabr aylarında muxtar respublikaya 351 min 597 nəfər turist gəlmişdir ki, bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 2,7 faiz və ya 9336 nəfər çoxdur.

***

1 noyabr 2015-ci il tarixə muxtar respublikada əhalinin sayı bir il öncəyə nisbətdə 4316 nəfər və ya 1 faiz artaraq 443579 nəfər təşkil etmişdir.

## Makroiqtisadi göstəricilər

| Müqayisə predmeti | 2015-ci ilin yanvar-noyabr aylarında (min manat) | 2015-ci ilin yanvar-noyabr aylarının 2014-cü ilin yanvar-noyabr aylarına nisbətən, faizlə |
|---|---|---|
| Ümumi daxili məhsul | 2150466,6 | 101,6* |
| Hər bir nəfərə düşən ümumi daxili məhsul, manat | 4866,4 | 102,3 |
| Sənaye məhsulunun ümumi həcmi | 834451,0 | 101,5* |
| Əsas kapitala yönəldilən investisiyalar | 871213,6 | 104,5 |
| Kənd təsərrüfatının ümumi məhsulu | 347558,4 | 112,6* |
| Nəqliyyat sektorunda yük daşınması, min ton | 14049,9 | 102,1 |
| İnformasiya və rabitə xidmətlərinin həcmi | 44490,7 | 101,9 |
| o cümlədən mobil rabitə üzrə | 37690,4 | 102,2 |
| Pərakəndə əmtəə dövriyyəsi | 1157762,6 | 106,6* |
| Əhaliyə göstərilən pullu xidmətlər | 176034,8 | 104,0* |
| Xarici ticarət dövriyyəsi, min ABŞ dolları | 434573,5 | 97,2 |
| o cümlədən ixracın ümumi həcmi | 374640,7 | 106,9 |
| idxalın ümumi həcmi | 59932,8 | 61,9 |
| Əhalinin gəlirləri | 1596926,3 | 101,9 |
| Hər bir nəfərə düşən gəlirlər, manat | 3613,8 | 100,8 |
| Bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı, manat | 395,6 | 101,8 |

*) müqayisəli qiymətlər üzrə